

**İSGƏNDƏR QULİYEV,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

## HEYDƏR ƏLİYEV YENİ AZƏRBAYCAN DÖVLƏTİNİN BANİSİDİR

Azərbaycan xalqı dünyanın ən qədim dövlətçilik mədəniyyətinə malik olan xalqlarındandır. Ölkəmizin ərazisində həm eradan əvvəl, həm də sonra qüdrətli dövlət qurumları mövcud olmuş, bu dövlətlər xalqımızın siyasi, sosial-mədəni və iqtisadi tarixində mühüm rol oynamışlar. XIX yüzilliyin əvvəlində Rusiya və İran imperiyaları Azərbaycanı öz aralarında bölüşdürdükdən və müstəqil dövlətçiliyimizə son qoyduqdan sonra xalqımız dəfələrlə yenidən öz dövlətçiliyini bərpa etmək üçün ayağa qalxmış, nəhayət XX əsrin əvvələrində respublika tipli yeni dövlətlərini-Azərbaycan Xalq Cumhuriyyətini yaratmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) (1918-1920) müasir dövlətçilik tarixində rolu çox böyük olmuşdur. AXC-nin süqutundan sonra xalqımız həmişə müstəqilliyini bərpa etmək arzusu ilə yaşamış, 1991-ci ilin yayında Sovet İmperiyasının dağılması, ittifaqı bərpa etmək üçün Moskvada dövlət çevrilişinin baş tutmaması ilə Azərbaycan xalqının tarixi ənənələrə əsaslanan müstəqillik ümidləri geniş vüsət aldı. Bu proses o dövrdə bütün dünyada baş verən ictimai-siyasi hadisələri sürətləndirərək yeni məcraya yönəltdi. Azərbaycan xalqı ictimai- siyasi həyatda baş verən qanunauyğun hadisələrdən məharətlə istifadə etdi. 1991-ci il avqust ayının 30-da xalqın tələbi ilə Azərbaycan SSR Ali Sovetinin sesiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul edildi.

Bu Bəyannaməyə müvafiq olaraq Azərbaycan SSR Ali Soveti 1991-ci il oktyabr ayının 18-i "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktı" nı qəbul etdi.

Azərbaycanın o dövrdəki rəhbərliyi hakimiyyətdə qalmaq ümidi ilə dövlət müstəqilliyini bütün vasitələrlə pozmağa çalışır, SSRİ-nin tərkibində qalmaq üçün dəridən-qabıqdan çıxırdılar. Lakin xalq öz sözünü demişdi. 1991-ci ilin dekabrın 8-də SSRİ tamamilə süquta uğrayandan sonra, dekabrın 29-da müstəqillik haqqında Konstitusiya aktına münasibəti öyrənmək məqsədi ilə Azərbaycanda ümumxalq referendumu keçirildi.

Əhalinin 95 %-i bu referendumda iştirak edərək müstəqillik, suverenlik yolundan dönməyəcəyini bildirdi. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktı" qüvvəyə mindi.



Azərbaycan müstəqilliyinə nail olduqdan sonra siyasi mübarizənin yeni dövrünə, Azərbaycanın müstəqilliyini qorunub saxlamaq və möhkəmləndirmək uğrunda mübarizə dövrünə qədəm qoydu. Yeni Azərbaycanın quruçuluğuna başlandı. Bu dövr on ildən artıqdır ki, gərgin döyüşlər, mübarizələr, maneələrlə üzləşir. Müstəqillik şərəfli olduğu qədər də əzab-əziyyətlərlə qorunur, ildən-ilə möhkəmlənir Müstəqillik möhkəmləndikcə ictimai-siyasi böhran dərinləşir, hakimiyyət ehtirası iqtidar müxalifət qarşıdurması genişlənirdi. Müstəqilliyin ilk illərində yaranmış tarixi şəraitdə o zaman hakimiyyətdə olan iqtidarın, həm də müxalifətin ehtiyat etdiyi yeganə qüvvə, əsas rəqib Heydər Əliyev idi. Buna görə də Heydər Əliyev əleyhinə qərəzli, böhtan və iftira ilə dolu təbliğat kompaniyası başlandı. Heydər Əliyevin təkcə adı onlar üçün dəhşətli bir qorxu demək idi. Odur ki, Heydər Əliyevin adının belə çəkilməsi o illərdə yasaq edilmişdi. Heydər Əliyevin Bakıya gəlişi əks qüvvələri dəhşətli surətdə qorxuya salmışdı.

Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan MR-nın Ali Sovetinin Sədri seçilməsi onları dəhşətə gətirdi. Hətta A.Mütəllibov Heydər Əliyevin Naxçıvan Ali Sovetinin sədri vəzifəsinə seçilməsini Naxçıvanda dövlət çevrilişi kimi qiymətləndirirdi. Onların məqsədi Heydər Əliyev şəxsiyyətindən yaxa qurtarmaq idi. Ölkədə və hakimiyyətdə mövcud olan böhran isə getdikcə dərinləşirdi. Belə bir şəraitdə 1992-ci il mart ayının 25-də Ali Sovetin növbədənkənar sessiyası, 1992-ci ilin iyunun 7-də prezident seçkilərinin keçirilməsi haqqında qərar qəbul etdi. Belə bir ərəfədə Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasını böhrandan qurtarmaq üçün gördüyü əməli tədbirlər, yeni dövlət quruculuğu yolunda atılan uğurlu addımlar onun nüfuzunun daha da artmasına səbəb oldu. Azərbaycan xalqı çox yaxşı başa düşürdü ki, respublikanın bu ağır böhrandan ancaq təcrübəli siyasətçi, dövlət quruculuğu sahəsində böyük nüfuza malik, müdrik şəxsiyyət Heydər Əliyev çıxara bilər. Ona olan güclü ümumxalq inamı və ümidi gündən-günə artır, onun hakimiyyətə gəlmək imkanını daha da sürətləndirdi.

Bundan ehtiyat edən o vaxtkı Azərbaycan iqtidarı Heydər Əliyevin prezidentliyə namizədliyinə süni maneəçilik törətmək məqsədi ilə Konstitusiyada prezidentlik vəzifəsinə namizədlik üçün yaş məhdudiyyəti məsələsini qoydu. Məqsəd aydın idi. İqtidar, xalqa yad olan ünsürlər bütün qüvvələrini səfərbər edirdilər ki, Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə gəlməsin. Onlar Heydər Əliyevə böhtanlar, iftiralar ataraq onu ləkələməyə, xalqın gözündən salmağa, hətta həyatına qəsd təşkil etməyə çalışırdılar. Qara qüvvələr respublikamızın Ali Sovetinin sessiyalarında Heydər Əliyev əleyhinə ayrı-ayrı deputatların qərəzli çıxışlarını təşkil edirdilər. Onlar heç bir etik normalara məhəl qoymadan həyasızcasına XX əsrin böyük müdrik şəxsiyyəti Heydər Əliyevin ünvanına olmazın iftiralar, necə deyərlər, bir pud balla udulması mümkün olmayan böhtanlar yağdırırdılar.

1992-ci ilin may-iyun aylarında, təxribatla, zorakı vasitələrlə hakimiyyətə gələn cəbhə-müsavat cütlüyü və digər müxtəlif partiyalar, qurumlar Heydər Əliyevə qar-

şı kampaniya aparmağa başladılar. Onlar bu qərəzli fəaliyyətlərini bu gün də davam etdirirlər.!

O illər Azərbaycanın çox ağır, mürəkkəb və ziddiyətli bir dövrü idi. Ölkədə dərəbəylik hökm sürürdü, özbaşnalıq, hərc-mərclik, satqınlıq baş alıb gedirdi. Bir-birinin ardınca baş verən hakimiyyət dəyişmələri, təsadüfi və ləyaqətsiz adamların, heç bir idarəçilik təcrübəsi olmayan quldur dəstə başçılarının hakimiyyətə yiyələnmələri, sonradan dövlət çevrilişləri etmək cəhdləri, vəzifələrindən sui-istifadə edərək, reket, qaçaqmalçılıq, terror, adam oğurluğu və s. Kimi cinayətlər ölkədə adi hala çevrilmişdir. Dəhşətlisi bir də bu idi ki, qısa bir müddət ərzində ölkənin varidatı amansız sürətlə talan edilirdi. Doğma torpaqlarımız hərraca qoyulur, erməni faşistləri ilə əlbir olan xalq düşmənlərinin, satqınların xəyanəti nəticəsində bir-birinin dalınca işğalçıların əlinə keçirdi. Milyonlarla insanlar şərəfsizlərin hakimiyyət və var-dövlət təxribatlarının girovuna çevrilir, ən adi halda öz doğma yurd-yuvalarından didərgin düşürdülər.

Xalq Cəbhəsinin "xidmətlərindən" biri də o idi ki, təxminən bir ilin içərisində ölkəni çoxsaylı quldur cəbhəxanasına çevirmiş, müxtəlif silahlı, bandit dəstələrinə xüsusi səlahiyyətlər vermişdir. Bununla da xalqı, milləti, doğma yurd-yuvalarımızı əllərində oyuncağa çevirən subyektiv-qaragüruhçu rejimin idarə etdiyi dözülməz bir vəziyyət yaratmışdı. Bir sözlə, Azərbaycan XC-Müsavat hakimiyyəti dövründə bir ilin içərisində inkişaf baxımından on illərlə geri düşmüş, xalq onun üçün ulularımızın yadigarı olan müqəddəs torpaqları itirmişdi. Bununla yanaşı canavarlar ağız-ağıza yatan kimi bunlar da bir- biriləri ilə dil tapa bilmir, daim öz aralarında didişirdilər. (İndi olduğu kimi)

Xalq Cəbhəsinin daxilində keçmiş silahdaşlar arasında baş verən qarşıdurmalar 1993-cü ilin iyununda Gəncə qiyamı ilə nəticələndi. Ölkədə mövcud olan dərin siyasi iqtisadi və sosial böhran hakimiyyəti iflic vəziyyətinə gətirib çıxartdı. Baş nazir, Milli Məclisin sədri, bütün güc nazirliklərinin rəhbərləri istefaya göndərildi, ölkə heç bir qurum və ya şəxs tərəfindən idarə olunmurdu. Tam hakimiyyətsizlik şəraiti yaranmışdı. Ümumiyyətlə, o zamanki "iqtidarın" apardığı bütün tədbirlər cəmiyyəti görünməyən uçurum qarşısında qoymuşdu. Onların respublikada yaratdığı ictimai-siyasi xaos, anarxiya, zorakılıq və s. Nəticə etibarı ilə vətəndaş qarşıdurmasının reallaşmasına Azərbaycanın Ermənistan təcəfüzkarlarına qarşı apardığı ədalətli müharibədə məğlubiyyətə uğramasına, hakimiyyətin tam iflasına gətirib çıxartmışdı.

Nəticədə 1993-cü ilin iyununda Azərbaycan dövlətçiliyi ən ağır böhran və məhvolma təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə çatdırıldı. Beləliklə, Azərbaycan olum ya ölüm dilemması qarşısında qaldı. Ölkənin belə bir ağır dövründə prezident Əbülfəz Əliyev (Elçibəy) xalqın ona etibar etdiyi hakimiyyəti qəflətən tərk edərək Naxçıvana, doğma kəndinə -Kələkiyə qaçdı.

Xalqın təkidli tələbi ilə ölkədə hakimiyyət dəyişikliyi baş verdi. 1993-cü il iyunun 15-də böyük siyasətçi Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinə sədr seçildi. İyunun 23-də isə bu görkəmli şəxsiyyətə Azərbaycan Ali Soveti tərəfindən respublika prezidentinin səlahiyyətlərini həyata keçirmək həvalə olundu. Beləliklə, xalqın istəyi və təkidli tələbi ilə Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə gəldi. Millət özünə qayıtdı, xalqımızın istəyi, arzusu çin oldu. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan tarixinin işıqlı səhifələri yazıldı.



Heydər Əliyev hakimiyyətə gələndən dərhal sonra ağır vəziyyətdə olan respublikanın qarşısında duran problemləri həll etməyə başladı.

Gəncədəki hadisələr dinc yolla nizamlanma axarına düşdü. Əlikram Hümbətovun elan etdiyi qondarma "Talış-Muğan Respublikası" Heydər Əliyevin xalqa müraciəti və bölgə zəhmetkeşlərinin təzyiqi ilə ləğv olundu. "Sadval"çıların separatçı hərəkətlərinin və qondarma Çar-Balakən Respublikası yaratmaq cəhdlərinin qarşısı alındı. Ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr məhv edilməyə başlandı. Cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi və cəzalandırıldı. Ölkədə əmin-amanlıq, siyasi sabitlik yarandı. 1994-cü ilin mayında Ermənistan-Azərbaycan müharibəsində ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu. İnflyasiya dayandırıldı, aqrar sahədə islahatlara başlandı. Azad bazar iqtisadiyyatına keçidlə əlaqədar özəlləşdirməyə geniş meydan verildi. Xarici siyasətdə mühüm nailiyyətlər əldə edildi. Beynəlxalq maliyyə mərkəzləri, dünyanın iri şirkətləri Azərbaycana böyük miqdarda kredit verməyə, investisiya qoymağa başladılar.

1994-cü ilin sentyabrında Azərbaycanda yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək Bakıda "Əsrin müqaviləsi" adlandırılan ilk neft kontraktları imzalandı.

Lakin yaranan sabitlik, əldə edilən nailiyyətlər Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu hakimiyyət hərisi olan müəyyən qüvvələri ciddi narahat edirdi. Onlar hakimiyyəti ələ keçirmək üçün hər cür çirkin vasitələrə qeyri-qanuni yollara, zorakılığa əl atırdılar.

1994-cü il oktyabrın 4-də respublikanın o zamankı baş naziri Surət Hüseynovla xüsusi təyinatlı polis dəstəsinin başçısı Rövşən Cavadovun birgə iştirakı ilə Gəncədə dövlət çevrilişi cəhdi baş verdi . Azərbaycan dövlətinin başçısı, görkəmli sərkərdə və dahi siyasətçi prezident Heydər Əliyev cənablarının qətiyyəti və dəyanəti, dərin düşünülmüş tədbirlərin nəticəsində, bütün xalqımızın köməyi ilə dövlət çevrilişi məqsədi güdən qəsdin qarşısı məharətlə alındı.

Qanuni dövlət orqanlarını devirməyə, siyasi hakimiyyəti zorakılıqla dəyişdirməyə yönələn növbəti cəhd isə 1995-ci ilin martında baş verdi. Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı polis dəstəsinə rəhbərlik edən R.Cavadov və onun qardaşı M.Cavadov tərəfindən başlanan silahlı yolla dövlət çevrilişi cəhdinə bu dəfə öz məqsədlərini, hakimiyyət hərisliklərini həyata keçirmək ümidi ilə müxalifət partiyalarının əksəriyyəti də qoşuldu və çirkin mənafelərini ümummilli mənafelərdən üstün tutaraq qəsdçiləri müdafiə etdilər. Belə təhlükəli, xalqa düşmən

qüvvələri yenə də müqəddəs Azərbaycan xalqına arxalanan, dövlətimizin və xalqımızın xilaskarı, andına sadiq qalan müdrik prezidentimiz Heydər Əliyevin yenilməz iradəsi tərk- silah etdi. Xalqımızın sərkərdəsi Heydər Əliyev cənablarının rəhbərliyi ilə qanunsuz silahlı dəstələr, cinayətkar qruplar, xaricdən və daxildən müdafiə olunan qüvvələr, Azərbaycan dövlətini silah gücü ilə devirməyə cəhd göstərən qəsdçilər qanuni orqanların gücü ilə tamamilə darmadağın edildilər.

Böyük dövlət xadimi Heydər Əliyevin gücü, qətiyyəti, qüdrəti, iradəsi, zəkası, yenilməzliyi, prinsipiallığı və dövlətçiliyi sayəsində bu təhlükənin də qarşısı məharətlə alındı. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti özünün möhkəmliyini, etibarlığını, qanunçuluğu və vətəndaşların təhlükəsizliyini hər şeydən yüksək tutduğunu bütün dünyaya nümayiş etdirdi.

Azərbaycanda hakimiyyətə gəlmək üçün silahlı dəstələrdən, qeyri-qanuni yollardan zorakılıqdan istifadə etmək ənənəsinə son qoyuldu. Respublikamız dinc və sabitlik şəraitində öz müstəqil dövlətini qurmaq və inkişaf etdirmək imkanı qazandı. Ölkə demokratik, hüquqi, dünyəvi dövlət yaratmaq naminə geniş islahatlar dövrünə qədəm qoydu.

Ölkədə sabitlik yaratmaqla zəmanəmizin qüdrətli siyasətçisi prezident Heydər Əliyev vaxtilə söylədiyi məşhur kəlamına sadiq qaldığını bir daha sübut etdi: "Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır..". Beləliklə, müdrik prezidentimiz Heydər Əliyev Azərbaycan xalqını, müqəddəs yurdumuzu milli-mənəvi parçalanmadan, vətəndaş müharibəsindən, iflasa uğramaqdan, məhv olmaqdan xilas etdi.

Azərbaycanda ictimai-siyasi sabitliyin yaranması, bütün qanunsuz silahlı dəstələrin ləğv olunması, cinayətkar qrupların qarşısının alınması və s. Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılmasına şərait yaratdı. Ölkəmizdə müstəqil dövlətin təsisatlarının yaranması və dövlət quruculuğu prosesi 1995-ci ildə böyük vüsət aldı. Müstəqil respublikamızın ilk konstitusiyasının qəbul olunması artıq zərurətə dönmüşdü. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin sədrliyi ilə Konstitusiya komissiyası tərəfindən hazırlanmış konstitusiya layihəsi 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi- referendum yolu ilə qəbul olundu. Müstəqil Azərbaycanın ilk konstitusiyasının qəbul edilməsi dövlət quruculuğu baxımından son dərəcə böyük əhəmiyyətə malik olan bir hadisə idi. Bu konstitusiyanın yüksək məzmunda hazırlanması və qəbulu prezident Heydər Əliyevin yorulmaz fəaliyyəti ilə bağlıdır. Dahi şəxsiyyət Heydər Əliyev müstəqil Azərbaycanın ilk milli konstitusiyasının baş memarıdır. Bu konstitusiyanı Heydər Əliyevin şah əsəri adlandırmaq olar. Müstəqil dövlətimizin Heydər Əliyev konstitusiyası ölkəmizə bütün dünyada demokratik dövlət nüfuzu qazandırdı. Azərbaycan müstəqil dövlət kimi möhkəmləndikcə onun silahlı qüvvələri də formalaşır, inkişaf edir. İndi milli ordumuz Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın milli mənafelərini, onun ərazisini qorumağa tam qadir olan qüvvətli bir orduya çevrilmişdir. Keçən müddət ərzində Milli Məclis tərəfindən 1400-ə qədər qanun qəbul edilmiş müstəqil dövlət idarəçiliyinin hüquqi bazası yaranmışdır. Qəbul olunmuş bu qanunlar əsasında Azərbaycanda geniş miqyaslı siyasi, iqtisadi, hüquqi, demokratik islahatlar həyata keçirilir.



Bu müddət ərzində Azərbaycanın beynəlxalq və regional təşkilatlarla da əlaqələri genişlənərək möhkəmlənmişdir. Bu müddət ərzində Azərbaycan 140-dan çox ölkə ilə diplomatik əlaqə qurmuşdur.

Hər bir ölkənin, xalqın həm yaşaması, həm də dövlətinin mövcud olması üçün əsas şərt onun iqtisadiyyatıdır. Ölkəmizdə bazar iqtisadiyyatının yaradılması məqsədilə görülən genişmiqyaslı tədbirlər nəticəsində istehsalda yaranmış geriləmə hallarının qarşısı alınmış, makroiqtisadi sabitlik təmin olunmuşdur. Ümumi daxili məhsulun artımı 1996-cı ildə 1,3% olmuşdusa, 1999-cu ildə 7,4 %-ə yüksəlmişdi. Bunun nəticəsində ölkəmizdə əhalinin sosial vəziyyəti ildən-ilə xeyli yaxşılaşmağa başlamışdır. Belə ki, respublikamızda işçilərin orta aylıq əmək haqqı 1994-1999-cu illərdə 12 dəfə artmışdır.

Azərbaycanın 1991-ci ildə əldə etdiyi dövlət müstəqilliyi, heç şübhəsiz, bütün xalqımızın tarixi nailiyyətidir.

Tanrı başı bəlalı, həyatı müsibətlərlə dolu olan xalqımıza Heydər Əliyev kimi müdrik bir şəxsiyyət bəxş edib. Əgər Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə gəlməsəydi, heç şübhəsiz Azərbaycan nə müstəqil ola bilərdi, nə də müstəqilliyini qoruyub saxlaya bilərdi. Buna görə də mən belə bir məntiqi nəticəyə gəlirəm ki, əgər 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyində Heydər Əliyev olsaydı, onda heç şübhəsiz ki, həmin demokratik respublikamız devrilməzdi.

Çünki XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın daxili və xarici vəziyyəti 1918-1920-ci illərlə müqayisədə qat-qat ağır, mürəkkəb və ziddiyətli idi.

Müdrik prezidentimiz Heydər Əliyev yenidən hakimiyyətə gəldiyi gündən Azərbaycan ayağa qalxdı, müstəqil dövlət kimi tanınmağa başladı. – Bu ifadələr sözdə , deyilişdə çox asan səslənir. Əslində onların hər kəlməsi, hər ifadəsi və mənası Heydər Əliyevin gecəli-gündüzlü gərgin əməyi, misilsiz zəhməti, mübarizəsi, qətiyyətli və cəsarətli fəaliyyəti bahasına başa gəldi. Adı Araz çayından o tərəfdə belə tanınmayan müstəqil Azərbaycan dövləti qısa bir müddət ərzində bütün dünyada tanındı. Ömrünü xalqa, doğma vətəninin sərf və həsr edən Heydər Əliyev kimi dahi bir insan Allahın, ulu Tanrının Azərbaycan xalqına ən böyük töhfəsidir. Heydər Əliyev nəinki Azərbaycan xalqının, bütün türk dünyasının düşünən beyni, görən gözü, eşidən qulağı, danışan dilidir. Prezident Heydər Əliyevin dünyaya nümunə olan idarəçilik təcrübəsi, ali mədəni diplomatik səviyyəsi təkrarsız psixoloji zənginliyi bəşəriyyəti heyran etmişdir. Heydər Əliyev Azərbaycan xalqı üçün yüz illəri qabaqlayan, çox böyük işlər görmüş və özünün xalqının dahi oğlu kimi gələcək əsrlərə üzüağ, alnıaçıq çıxmasını təmin etmişdir.

Azərbaycanın əsaslı, qüdrətli, milli dövlətçilik tarixi Heydər Əliyevdən başlanır. Heydər Əliyev Azərbaycan və dünya dövlətçilik ənənələri sistemində son dərəcə şanlı, milli və sosial gedişlər edən, Azərbaycan dövlətçiliyinin elmi –nəzəri və təcrübi əsaslarını yaradan, gələcək üçün işıqlı yollar açan böyük insan, qüdrətli dövlət xadimi, böyük siyasətçi və xüsusilə də dünya ölkələri-dünya dövlətləri sisteminin yeni dahisidir. Heydər Əliyevdə olan ilahi qüdrət, tükənməz fəaliyyət, paklıq, alicənablıq onun Vətənə-xalqa olan böyük məhəbbəti ilə bağlıdır. O, böyük siyasətçi, dövlət xadimi olduğu qədər də böyük humanist, alicənab insandır.

Cənab Prezidentimiz Heydər Əliyevi bütün dünya tanıyır. Özü də onu tarixdə görünməyən ən müqqədəs, ülvi bir insan kimi, yaşadığı dövrün dahi şəxsiyyəti kimi tanıyır. Bu baxımdan Heydər Əliyev indiyədək söylənmiş böyük kəlamlardan , müdrik sözlərdən də ucada durur. Onun qüdrətli xarakterini tam əhatə edən qiyməti yalnız böyük Vətəni-Xalqı verə bilər. Allah Heydər Əliyevi qəlbən natəmiz, zahirən xeyirxah görünməyə çalışanlardan hifz etsin.! Belə də olacaq! İndiyədək ən güclü düşmənlər belə Heydər Əliyevin qüdrəti qarşısında düz çəkiblər. İnşaallah, bundan sonra da belə olacaqdır!

Təsadüfü demirlər ki, Heydər xalq-xalq Heydər! Azərbaycan xalqı Heydər Əliyevlə nəfəs alır. Onun bu günü-sabahı Heydər Əliyevlədir. Bu xalq öz müqəddəs rəhbərini 2003-cü ildə yenidən əbədi prezident seçməyə hazırlaşır. Bu istək əlli milyonluq Dünya azərbaycanlılarının istəyidir. Hər birimiz inanırıq ki, xalq öz istəyinə nail olacaq, böyük Heydər Əliyevi yenidən prezident seçəcək. Eşq olsun belə xalqa!

Mən böyük Azərbaycan xalqının bir nümayəndəsi kimi bütün qəlbimlə, ruhumla inanıram ki, Heydər Əliyev cənabları böyük insan kimi dünya xalqlarının, xüsusən də türk dünyasının, əlli milyondan çox Azərbaycan xalqının məhəbbətini qazanan dahi bir insandır. Hamı Heydər Əliyevi öz xilaskarı kimi sevir, biz bunun dəfələrlə canlı şahidi olmuşuq. Həmin yazıda bunlardan ancaq birini xatırlatmaq istərdim. Vətənin ağır günündə gecə Heydər Əliyevin bir müraciəti, bir çağırışı ilə prezident aparatının qarşısında bütün Bakı toplandı. Belə dövlət, belə xalq, belə prezident daimi olur, tarixə öz pozulmaz imzasını atır, yeni səhifələr yazır, əsrlər və nəsillər üçün əbədiləşir. Eşq olsun belə Prezidentə !